2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 04 yanvar 2020-ci il tarixli 60 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 05 yanvar 2020-ci il

Mən, ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərov 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 86 saylı İsmayıllı seçki dairəsindən Hacıhətəmli bələdiyyəsinə seçkilərdə qeydə alınmış namizədlər İsmayıllı Elşən Səməd oğlu, Beybutov Cəmil Sayəddin oğlu, Dadaşov Samir Məhəmməd oğlu, Əhməov Ədalət Şahlar oğlu, Əhmədov Əlişan Aslan oğlu, Səlimov Vüqar Ata oğlu, Seyidov İlqar İldırım oğlu, Şiraliyev Talib Şahalı oğlu, Balaliyev Əlişir Rasim oğlu, Seyidov Murad Əliyar oğlunun səsvermə günü həmin seçki dairəsinin 56 saylı seçki məntəqəsində qanun pozuntularının baş verdiyinə və bununla bağlı müvafiq tədbir görülməsinə dair Mərkəzi Seçki Komissiyasına daxil olmuş 04 yanvar 2020-ci il tarixli 60 saylı müraciətini nəzərdən keçirərək **m ü ə y y ə n e t d i m :**

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilərək rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, o, seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də ekspert qrupunun üzvü müraciətin geri qaytarılması barədə rəy vermişdir.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və yuxarıda göstərilən Təlimatın 4.1.2-ci yarımbəndinə əsasən, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 4.1.2-ci yarımbəndinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 86 saylı İsmayıllı seçki dairəsindən Hacıhətəmli bələdiyyəsinə seçkilərdə qeydə alınmış namizədlər İsmayıllı Elşən Səməd oğlu və digərlərinin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 04 yanvar 2020-ci il tarixli 60 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən ərizəçilərə geri göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərov